**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**
**ELMİ ŞURA İCLASININ 7 SAYLI PROTOKOLUNDAN**
**ÇIXARIŞ**

**(onlayn iclas)**
**28 aprel 2021-ci il**
***Elmi Şuranın üzvləri - 56 nəfər***
***İştirak edirdi - 46 nəfər***
***Sədr,rektor,prof. G.H.Məmmədova***

**İCLASIN GÜNDƏLİYİ: .**

**CARI**: 2021-2025-ci illər üzrə Universitetin Srtateji inkişaf planını barəsində.

**EŞİDİLDİ**: Tədris işlər üzrə prorektor, dos.A.F.Qasımov Srtateji planlaşdırma söbəsi tərəfindən hazırlanmış 2021-2025-ci illər üzrə Universitetin Srtateji inkişaf planını təqdim etdi.

Müzakirələrdən sonra qərar qəbul olundu.

**QƏRARA ALINDI: 2021-2025 ci illər üzrə Universitetin Srtateji inkişaf planının təsdiqi.**

**ELMİ ŞURANIN SƏDRİ: prof.G.H.MƏMMƏDOVA**

**ELMİ KATİB : prof. N.M.ASLANOVA**

Azərbaycan memarlıq və inşaat universiteti

# Strateji inkişaf planı

2021-2025

Rektor: G. H. Məmmədova

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ

# Universitetin tarixi

Azərbaycan Memarlıq və İnşaat Universiteti 1920-ci ildə Bakı Politexnik İnstitutunun nəzdində mühəndis-tikinti fakültəsi ilə fəaliyyətə başlayıb.

1975-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü, Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Azərbaycan Politexnik İnstitutunun Memarlıq, İnşaat, Hidromeliorasiya və Nəqliyyat fakültələrinin bazasında Azərbaycan İnşaat Mühəndisləri İnstitutu (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti) təsis edilib. 2000-ci il iyun ayının 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə bu ali məktəb Azərbaycan Memarlıq və İnşaat Universiteti adlandırılıb.



# Azərbaycan Memarlıq və İnşaat Universitetinin 2021-2025-ci illər üzrə strategiyası aşağıdakı dövlət sənədlərinə əsaslanır

Azərbaycan Respublikası Prezidentinin 2013-cü ilin oktyabrında qəbul etdiyi "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan təhsil sisteminin qloballaşma şəraitində Avropa təhsil sisteminə inteqrasiyasını əsas prioritet kimi şərtləndirir. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı, rəqabətədavamlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır. Strategiyanın məqsədi ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Ali təhsil müəssisəsinin rəqabətədavamlığının əsas şərtlərindən biri kimi, 2018-ci il 16 noyabr tarixli Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliyinin artırılması üzrə Dövlət Proqramı ölkənin ali təhsil müəssisələrinin bütün istiqamətlərdə beynəlmiləlləşməsi nəticəsində mütəxəssis hazırlığının müasir tələblərə uyğun keyfiyyətinin təmin edilməsinə yönəlib.



# Universitetin kampusu

Universitetin əsas kampusu 5,56 hektar ərazini əhatə edir. 4 tədris binasından və müasir avadanlıqlarla təchiz olunmuş idman mərkəzindən ibarətdir. Eləcə də burada bir neçə zaldan ibarət yeməkxana və qonaq evi mövcuddur. Həmçinin universitetin Yasamal kampusunda İnşaat Kollecinin binası və 6 yataqxana binası yerləşir.



# Universitetin strukturu



# AzMİU-nun 2015-2020-ci İLLƏR ÜZRƏ STRATEJİ İNKİŞAF PLANININ REALLAŞDIRILMASININ DƏYƏRLƏNDİRİLMƏSİ

## TƏDRİS

- ✓ Yeni ixtisaslar açılmışdır.
- ✓ Onlayn təhsil sistemi qurulub.
- ✓ Tədris planları və fənn proqramları yenilənmiş, təkmilləşdirilmişdir.
- ✓ İngilis dilində tədris genişləndirilmişdir.
- ✓ İkili diplom proqramları həyata keçirilir.
- ✓ Qiyabi şöbədə distant təhsil aparılmağa başlanılmışdır.
- ✓ Magistratura səviyyəsində pilot layihələr reallaşdırılmışdır.
- ✓ Elektron tədris vasitələri formalaşdırılmışdır.

## ELMİ-TƏDQİQAT

- ✓ Respublika statuslu 33 və beynəlxalq statuslu 23 elmi konfrans keçirilmişdir.
- ✓ 2017-ci ildən etibarən AzMİU Plagiat.pl şirkəti ilə uğurlu əməkdaşlıq qurub.
- ✓ İmpakt faktoru jurnallarda çap olunan məqalələrin sayı artmışdır.
- ✓ 1 yeni elmi-tədris laboratoriyası açılmışdır.
- ✓ Sifarişlər əsasında elmi-tədqiqat və layihə işləri həyata keçirilmişdir.
- ✓ AMEA-nın İnstitutları ilə əməkdaşlıq qurulmuşdur.

## BEYNƏLXALQ ƏLAQƏLƏR

- ✓ 70 əməkdaşlıq, 14 Mövlanə, 6 Erasmus, 3 İkili diplom müqaviləsi imzalanmışdır.
- ✓ 100-ə yaxın xarici müəllim və ekspert AzMİU-da tədris və təlim fəaliyyətinə cəlb olunmuşdur.
- ✓ 4 tələbə İkili diplom proqramları çərçivəsində, 31 tələbə Erasmus, 17 tələbə Mövlanə mübadilə proqramları çərçivəsində xaricdə təhsil almışdır.
- ✓ 114 tələbə yay-qış məktəbləri və beynəlxalq staj proqramlarında iştirak etmişdir.
- ✓ 225 elmi-pedaqoji kadr xarici ölkələrdə qısa müddətli təcrübə, mübadilə və təlimlərdə iştirak etmiş, 124 müəllim xarici ölkələrdə tədris və elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmuşdur.
- ✓ 2017-ci ildən qış məktəbi layihəsi həyata keçirilir.

## STRATEJİ İNKİŞAF

- ✓ Memarlıq fakültəsi Britaniya Memarlarının Kral İnstitutunun (RİBA) 5 illik akkreditasiyasını almışdır.
- ✓ AzMİU-da Milan Politexnico Universiteti ilə birgə İtaliya Dizayn Mərkəzi yaradılmışdır.
- ✓ Ə.V.H.fakültəsi İngiltərənin Lester Universiteti tərəfindən akkreditasiyadan keçmişdir.
- ✓ İstehsalat qurumları ilə əməkdaşlıq genişlənmişdir.
- ✓ Çox sayda startap layihələr reallaşdırılmışdır.

## İNZİBATİ TƏSƏRRÜFAT

- ✓ Memarlıq fakültəsinin binası əsaslı təmir edilmişdir
- ✓ Memarlıq fakültəsinin binasına əlavə tikilmişdir.
- ✓ Universitetin 2 saylı tədris korpusu əsaslı təmir edilmişdir.
- ✓ Tələbə şəhərciyində təmir işləri aparılır.
- ✓ 12 tədris laboratoriyası yaradılmışdır.



***Azərbaycan Memarlıq və İnşaat Universiteti yüksəkixtisaslı memar və mühəndislər hazırlayan tanınmış elm və tədris mərkəzidir.***

# SWOT təhlil

## SWOT

### Güclü tərəflər

- Universitetdə tədris olunan ixtisasların müasir dövrdə aktuallığının artması
- Güclü elmi və mütəxəssis potensialının olması
- Memarlıq və inşaat ixtisasları üzrə tədris aparan ən iri, nüfuzlu universitet olması
- İstehsalatda geniş əlaqələrin mövcudluğu
- Təhsilin metodik və maddi-texniki bazasının son illərdə inkişafı
- Dünyanın nüfuzlu universitetləri ilə geniş əməkdaşlığın, ikili diplom proqramlarının mövcudluğu
- Elektron təhsilin qurulması
- Bütün fakültələrdə ingilis dilində tədrisin olması
- Reytinq sistemlərinə daxil olması

### Təhlükələr

- Az balla qəbul olan tələbələrin sayının artmasının təhsil səviyyəsinə mənfi təsiri
- Maddi-texniki bazanın müasirləşməsi  üçün imkanların az olması
- Elmi-eksperimental bazanın zəifliyi
- Elmi dərəcəsi olan müəllimlərin sayının azalması

### Zəif tərəflər

- Universitetin büdcəsinin tələbələrin təhsil haqqından ibarət olması
- Professor-müəllim heyətində yaşlı nəslin üstünlük təşkil etməsi
- Bir sıra kafedralarda ingilis dilində tədrisi təmin edəcək potensialın zəifliyi
- Universiteti bitirmiş məzunlarla əlaqələrin zəif olması
- Müəllimlərdə İKT biliklərinin zəifliyi
- Müasir laboratoriya və texnoloji avadanlıqların azlığı

### İmkanlar

- Təhsildə yeni çağırışlar və virtuallaşmanın təkmilləşməsi
- Professor-müəllim potensialının gücləndirilməsi, gənc kadrların cəlb edilməsi
- Hazırlanan ixtisaslar strukturunun müasirləşməsi
- Beynəlxalq akkreditasiyaların həyata keçirilməsi
- Təcrübə və karyera imkanlarının artırılması
- Yeni partnyor-biznes əlaqələrinin qurulması və inkişafı
- Tələbələrin motivasiyasının artırılması və universitet fəaliyyətinə cəlb olunması
- Tələbə ictimai təşkilatlarının fəallığının artırılması

# Universitetin inkişafının strateji hədəfləri

1. Ölkə iqtisadiyyatının müvafiq sahələrinin müasir tələblərinə uyğun gənc mütəxəssislərlə təmin edilməsi, layiqli vətəndaşların yetişdirilməsi;
2. Universitetdə ixtisas təhsilinin müxtəlif səviyyələrinin inkişafının təmin edilməsi (orta ixtisas, bakalavriat, magistratura, doktorantura);
3. Ömürboyu təhsil konsepsiyasına uyğun əlavə təhsil formalarının hazırlanması və geniş tətbiqi;
4. Universitetin Azərbaycanda memarlıq, inşaat və başqa sahələr üzrə kadr hazırlığında və elmi-tədqiqat sahəsində lider mövqeyinin gücləndirilməsi;
5. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionlarının inkişafında elmi və mütəxəssis kadrların fəal iştirakı;
6. Professor-müəllim heyətinin innovativ fəaliyyətinin inkişaf etdirilməsi;
7. Universitetin istehsalat qurumları ilə (dövlət və biznes) təhsil, təcrübə, elmi-tədqiqatlar istiqamətlərində hərtərəfli əlaqələrinin təmin edilməsi;
8. Rəqəmsal texnologiyaların bütün sahələrdə geniş tətbiqi;
9. Universitetin beynəlxalq təhsil sisteminə inteqrasiyası və rəqabətliliyinin artırılması;
10. Nüfuzlu reytinq sistemlərində universitetin layiqli yer tutması;
11. Bütün səviyyələrdə mütəxəssis hazırlığı proqramlarının ekspertizadan və beynəlxalq akkreditasiyadan keçməsi;
12. Universitetin cəmiyyətlə çoxşaxəli əlaqələrinin təmin edilməsi:
    - ictimaiyyətlə əlaqələr sisteminin inkişafı;
    - marketinq fəaliyyətinin inkişafı;
    - ekoloji problemlərin həllində universitetin fəal mövqeyinin təmin edilməsi;
    - xeyriyyəçilik fəaliyyətində tələbə və müəllimlərin iştirakı.

# Təhsil



## 2021-2025-ci illər üzrə mütəxəssis hazırlığının hədəfləri

- İxtisas təhsilinin bütün səviyyələrində mütəxəssis hazırlığı keyfiyyətinin artırılması, müasirləşməsi və təkmilləşdirilməsi;
- Mütəxəssis hazırlığı strukturunun ölkənin perspektiv tələbatları nəzərə alınmaqla yeniləşməsi;
- Təhsilin bütün səviyyələrində yeni tədris planları üzrə son nəticəyə xidmət edən təhsil məzmununun formalaşdırılması, yeni fənlərin tədris-metodik bazasının yaradılması;
- Dərslik bazasının (azərbaycan və ingilis dillərində) tam formalaşması və mütəmadi olaraq yeniləşməsi;
- İnformasiya texnologiyalarının və innovativ tədris metodlarının tətbiqinin genişləndirilməsi, o cümlədən problemyönümlü tədris metodunun tətbiqi üçün səylərin artırılması, rəqəmsal tədris resurslarının formalaşdırılması.



ЗОДЧЕСТВО
КАВКАЗСКОЙ
АЛБАНИИ
АРХИТЕКТУРА
ИНЖЕНЕРНЫХ
СООРУЖЕНИЙ
АЗЕРБАЙДЖАНА
DİZAYN TARİXİ
METAL
KONSTRUKSİYALARI
MÜHƏNDİS
GEODEZİYASI
İNŞAAT
KONSTRUKSİYALARI
MEXANİKASININ
PRAKTİK KURSU
EKOLOGİYA



- Məsafədən təhsilin elektron bazasının yaradılması və qiyabi təhsilin məsafədən təhsil formasına transformasiyası;
- Tədrisin praktiki komponentinin gücləndirilməsi və əhəmiyyətinin artırılması;
- Attestasiya texnologiyalarının təkmilləşdirilməsi;
- Ölkə iqtisadiyyatının və əmək bazarının müasir tələblərinə çevik cavab verən yeni magistr proqramlarının hazırlanması. 1,5 illik (90 kredit) magistr proqramlarının tətbiqi;
- İkili diplom proqramlarının sayının artırılması;
- Orta ixtisas təhsilinin strukturunun, kurikulumunun və maddi-texniki bazasının yenilənməsi üzrə fəaliyyətin artırılması.



***AzVirt şirkətində tələbələrin istehsalat təcrübəsi***

# Elmi-tədqiqat

## 2021-2025-ci illər üçün elm üzrə fəaliyyət strategiyası

1. Universitetin elmi potensialının, ölkənin iqtisadiyyatının müvafiq sahələrinin inkişafına istiqamətlənməsi:
   - Elmi-tədqiqat mövzularının iqtisadiyyatın prioritetləri ilə əlaqələndirilməsi;
   - Elmi-tədqiqatların nəticələrinin kommersiallaşması məqsədilə dəstək mexanizmlərinin yaradılması;
   - Patent fəaliyyətinin dəstəklənməsi və genişləndirilməsi;
2. Universitet elminin beynəlxalq elm məkanına inteqrasiyası:
   - Web of Science bazasına daxil olan nəşrlərdə məqalələrin sayının artırılması;
   - Universitetdə dərc olunan elmi jurnalların beynəlxalq tələblərə uyğunlaşdırılması və Scopus bazasına daxil edilməsi;
   - Xarici universitetlərlə və elm qurumları ilə əlaqələrin genişlənməsi və birgə tədqiqatların aparılması.

# Elmi-tədqiqat

**2021-2025-ci illər üçün elm üzrə fəaliyyət strategiyası**

3. Elmi kadrların hazırlanması və təkmilləşməsi:
- Akademik, elmi və yaradıcılıq potensialının inkişafına şəraitin yaxşılaşdırılması;
- Professor-müəllim heyətinin elmi maraq dairələrini, elmi əsərlərini, h-indekslərini və başqa məlumatları özündə əks etdirən rəqəmsal elmi bazanın yaradılması;
- Beynəlxalq elmmetrik bazalara inteqrasiya;
- Universitet tərəfindən elmi-tədqiqatların dəstəklənməsi üçün xüsusi fondun yaradılması;
- Doktorantura təhsilinin təkmilləşdirilməsi.



## Beynəlxalq əlaqələr üzrə fəaliyyət strategiyası

1. Universitetin dünya təhsil sisteminə inteqrasiyası, beynəlxalq rəqabətliyinin artırılması üçün beynəlxalq əlaqələrin inkişafı və genişləndirilməsi;
2. Beynəlxalq əməkdaşlığın təhsilin və kadr potensialının inkişafına istiqamətləndirilməsi:
   - xarici universitetlərlə partnyor əlaqələrinin genişlənməsi;
   - nüfuzlu xarici universitetlərin professorlarının tədris prosesinə cəlb edilməsi;
   - ikili diplom proqramlarının artırılması və proqramlardan müvafiq ixtisasların kurikulumlarının modernləşməsi, qabaqcıl təcrübənin öyrənilməsi üçün istifadəsi;
   - müəllim və tələbə mobilliyinin artırılması üçün beynəlxalq layihələrdən və universitetin partnyor əlaqələrindən istifadə edilməsi;
3. Beynəlxalq əməkdaşlığın elmi-tədqiqat fəaliyyətinin inkişafına istiqamətləndirilməsi:
   - beynəlxalq tərəfdaşlarla elmi əməkdaşlığın intensivləşdirilməsi;
   - birgə tədqiqatların aparılması üçün beynəlxalq qrand layihələrində iştirakın artırılması;
   - gənc alimlərin hazırlanmasında partnyor universitetlərin elmi potensialından səmərəli istifadəsi.

4. Universitetin tanıdılması üçün:

- beynəlxalq təşkilatlarla və universitet birlikləri ilə əməkdaşlığın davam etdirilməsi;
- beynəlxalq təhsil sərgilərində iştirak;
- internet resurslarında universitetin fəaliyyətinin bütün istiqamətlərini əks etdirən məlumatların yerləşdirilməsi və mütəmadi olaraq yenilənməsi.



# Kadr potensialının inkişaf strategiyası

1. Professor-müəllim heyətinə gənc, yüksəkixtisaslı mütəxəssislərin cəlb olunması, gənc və ortayaşlı kadrların sayının artırılması;
2. Müxtəlif əməkdaş qrupları və tədqiqatçıları üçün minimum İT və xarici dil bilikləri kriteriyalarının müəyyənləşməsi və tətbiqi;
3. Gənc müəllimlərin yetişdirilməsi sisteminin təkmilləşdirilməsi;
4. Müəllimlərin ixtisasartırma sisteminin yenidənqurulması və keyfiyyətinin təmin edilməsi;
5. Əmək fəaliyyətinin stimullaşdırılması üçün daxili qiymətləndirmə sisteminin təkmilləşdirilməsi. Maddi həvəsləndirmə formalarının artırılması;
6. Kadr potensialının güclənməsi üçün seminarların və treninqlərin (o cümlədən xarici mütəxəssislərin cəlb olunması ilə) və digər təlim və məlumatlandırma formalarının geniş tətbiqi;
7. Kadr potensialının inkişafında beynəlxalq əlaqələrin səmərəli istifadəsi.



# Maddi-texniki bazanın inkişafı

- Universitetin tədris-laboratoriya bazasının inkişafı üçün ardıcıl tədbirlərin görülməsi;
- Texnoparkın yaradılması üçün hazırlıq işlərinin həyata keçirilməsi;
- Maddi-texniki bazanın müasirləşməsi üçün beynəlxalq qrandların və biznes strukturları ilə əlaqələrin səmərəli istifadəsi;
- Tələbə şəhərciyində ardıcıl təmir və yenidənqurma işlərinin həyata keçirilməsi;
- Tələbələrin və müəllimlərin iş şəraitinin yaxşılaşdırılması üçün sosial təsisatların inkişafı;
- Kollecin və liseyin maddi-texniki bazasının inkişafı.



*Tələbələr AzMİU-nun yeni Memarlıq korpusunda*

# Memarlıq fakültəsi

**Fakültənin hədəfləri:**

- Təhsilin keyfiyyətinin yüksəlməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi. Növbəti dövr üçün RİBA akkreditasiyasının alınması;
- İstehsalatla əlaqələrin genişlənməsi və inteqrasiyası;
- Potensiala malik, elmi araşdırmalara marağı olan gənc mütəxəssislərin pedaqoji fəaliyyətə inteqrasiyası;
- İstanbul Texniki Universiteti ilə əməkdaşlığın genişləndirilməsi. Bu istiqamətdə magistr səviyyəsində ikili diplom proqramının qurulması;
- "İtaliya – Azərbaycan" dizayn mərkəzinin fəaliyyətinin genişləndirilməsi və sistemləşdirilməsi;
- Milan Politexnik Universiteti ilə bakalavriat səviyyəsinin "Dizayn" ixtisası üzrə ikili diplom proqramının genişləndirilməsi;
- Milan Politexnik Universiteti ilə magistratura səviyyəsinin "Memarlıq abidələrinin bərpası və yenidən qurulması" ixtisası üzrə ikili diplom proqramının yerinə yetirilməsi.

# Tədrisin keyfiyyətinin artırılması

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **Tədrisin keyfiyyət göstəricisinin yüksəldilməsi: kurs işlərinin kompleks həllinin təkmilləşdirilməsi** | Mütəmadi | Dekanlıq, Kafedralar | |
| **Tədrisin keyfiyyət göstəricisinin yüksəldilməsi: buraxılış işlərinin kompleks həllinin təkmilləşdirilməsi** | Mütəmadi | Dekanlıq, “Memarlıq layihələndirilməsi və şəhərsalma” və buraxılış kafedraları | |
| **RİBA-nın növbəti müddətə akkreditasiyasının alınması** | Mütəmadi | Dekanlıq | Xarici əlaqələr şöbəsi |
| **Milan Politexnik Universitetinin dəstəyi ilə “Dizayn” ixtisasının ingilis dilli qrupunda pilot tədris proqramının tətbiqinin genişləndirilməsi** | 2021-2024 | “Dizayn” kafedrası | Dizayn mərkəzi, Strateji planlaşdırma şöbəsi |
| **Magistr səviyyəsində ikili diplom proqramlarının qurulması** | 2021-2023 | Dekanlıq | Magistratura mərkəzi |
| **“Yay məktəbi” proqramında tələbələrin geniş iştirakının təmin edilməsi** | Mütəmadi | Dekanlıq | Xarici əlaqələr şöbəsi |
| **Professor-müəllim heyətinin mübadiləsi** | Mütəmadi | Dekanlıq, Kafedralar | Xarici əlaqələr şöbəsi |
| **Beynəlxalq tələbə mübadiləsi layihələrinin (Erasmus, Mövlanə) imkanlarından geniş istifadə edilməsi** | Mütəmadi | Dekanlıq | Xarici əlaqələr şöbəsi |

# Elmi-tədqiqat istiqaməti

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **Azərbaycanda memarlıq və şəhərsalma müasir problemləri üzrə tədqiqatların genişləndirilməsi. Memarlıq irsinin tədqiqi və bərpası istiqamətində tədqiqatların genişləndirilməsi** | 2021-2025 | Dekanlıq, Kafedralar | |
| **Beynəlxalq konfransların təşkili** | Mütəmadi | Dekanlıq, Kafedralar | |
| **Gənc kadrların elmə cəlb edilməsi** | Mütəmadi | Kafedralar | |
| **Beynəlxalq statuslu elmi nəşrlərdə professor-müəllim heyətinin təmsil olunması** | Mütəmadi | Kafedralar | Elmi-tədqiqat şöbəsi |
| **Doktoranturaya qabiliyyətli, elmi-tədqiqatlara dərin marağı olan gənclərin cəlb edilməsi** | Mütəmadi | Dekanlıq, Kafedralar | Doktorantura şöbəsi |
| **Beynəlxalq layihələr üzrə doktoranturaya qəbulun təmin edilməsi** | 2021-2025 | Dekanlıq, Kafedralar | Xarici əlaqələr şöbəsi və Doktorantura şöbəsi |

## Beynəlxalq əlaqələr

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **Beynəlxalq mübadilə proqramlarının artırılması** | 2021-2022 | Dekanlıq, Kafedralar | Xarici əlaqələr şöbəsi və Doktorantura şöbəsi |
| **Milan Politexnik Universitetilə əlaqələrin möhkəmlənməsi** | 2021-2022 | Dekanlıq, Kafedralar | Xarici əlaqələr şöbəsi və Doktorantura şöbəsi |
| **“İtaliya – Azərbaycan” dizayn mərkəzinin fəaliyyətinin genişləndirilməsi və sistemləşdirilməsi** | 2021-2022 | Dekanlıq, “Dizayn” kafedrası | Dizayn mərkəzi, Strateji planlaşdırma şöbəsi |
| **İstanbul Texniki Universiteti ilə əməkdaşlığın genişləndirilməsi** | 2021-2022 | Dekanlıq, Kafedralar | Xarici əlaqələr şöbəsi və Doktorantura şöbəsi |
| **Buraxılış işlərinin beynəlxalq müsabiqələrdə geniş təmsil olunması** | Mütəmadi | Dekanlıq, Kafedralar | |

## Maddi-texniki baza

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **Studiyaların sayının artırılması** | 2022 | Dekanlıq | Təchizat şöbəsi, Strateji planlaşdırma şöbəsi |
| **Tədrisin informasiya bazasının gücləndirilməsi** | 2022 | Dekanlıq | Təchizat şöbəsi, Strateji planlaşdırma şöbəsi |
| **Tələbələr üçün kurs, layihə və buraxılış işlərinin nəşri üçün çap mərkəzinin yaradılması** | 2022 | Dekanlıq | Təchizat şöbəsi, Strateji planlaşdırma şöbəsi |
| **Tələbələrə kurs layihə və buraxılış işlərinin yerinə yetirilməsi üçün lazımi xüsusi materialların (maket kartonu, forex, kağız növləri və s.) satış mərkəzinin yaradılması** | 2022 | Dekanlıq | Təchizat şöbəsi, Strateji planlaşdırma şöbəsi |



***Memarlıq fakültəsində qabiliyyət imtahanı***

# İnşaat fakültəsi

**Fakültənin hədəfləri:**

- İnşaat fakültəsinin sahə üçün kadr hazırlığında lider mövqeyinin saxlanması;
- Məzunların ölkədə və beynəlxalq aləmdə əmək bazarının tələblərinə uyğun yüksəkixtisaslı kadr kimi formalaşmasının təmin edilməsi;
- İnşaat mühəndisliyi ixtisası üzrə ali təhsilin keyfiyyətinin yüksəldilməsi;
- İkili diplom proqramlarının sayını artırmaq, İstanbul Texniki Universiteti ilə ikili diplom proqramlarının yaradılmasının davamı;
- Təhsilin keyfiyyətinin artırılması üçün beynəlxalq əlaqələrdən və partnyor universitetlərin təcrübəsindən istifadə etmək;
- Təhsilin praktiki komponentinin gücləndirilməsi, istehsalatla əlaqələrin genişləndirilməsi və tədris prosesinə inteqrasiyası;
- Fakültənin kadr potensialının inkişafı, gənclərin və təcrübəli mütəxəssislərin pedaqoji fəaliyyətə cəlb edilməsi;
- İkili diplom proqramları çərçivəsində kadr hazırlığının inkişaf etdirilməsi;
- İnşaat mühəndisliyi ixtisasının beynəlxalq akkreditasiya olunması istiqamətində işlərin aparılması.

# Tədrisin keyfiyyətinin artırılması

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **Müasir tələblərə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, metodik göstərişlərin təkmilləşdirilməsi və yenilərinin hazırlanması** | 2021-2025 | Tədris şöbəsi, Xarici əlaqələr şöbəsi və Kafedralar | Strateji planlaşdırma şöbəsi və Tədris şöbəsi |
| **Professor-müəllim heyətinin bilik və bacarıqlarının, peşəkarlığının artırılması, beynəlxalq təcrübəyə əsaslanan təlim və mübadilə proqramlarında iştirakın təmin olunması** | 2021-2025 | Tədris şöbəsi, Xarici əlaqələr şöbəsi və Kafedralar | İxtisasartırma dekanlığı, Magistratura mərkəzi |
| **Kafedraların professor-müəllim heyətinin ingilis dili biliklərinin artırılması, bu sahədə kursların, praktik məşğələlərin, təlimlərin təşkili** | 2021-2025 | Fakültə əməkdaşları | Xarici əlaqələr şöbəsi, Əcnəbi dillər kafedrası |
| **İngilis dilində tədris aparılan qruplarda müəllimlərin dil və ixtisas üzrə bilik və bacarıqlarının yüksəldilməsi** | 2021-2025 | Fakültə əməkdaşları | Xarici əlaqələr şöbəsi |
| **İstanbul Texniki Universiteti və digər xarici ölkə universitetləri ilə magistratura səviyyəsində ikili diplom proqramlarının həyata keçirilməsi** | 2021-2025 | Tədris şöbəsi, Xarici əlaqələr şöbəsi, Dekanlıq və Kafedralar | Strateji planlaşdırma şöbəsi, Magistratura mərkəzi |
| **Fənlər üzrə mühazirələr toplusunun periodik olaraq yenilənməsi, imtahan suallarının və testlərin keyfiyyətinin artırılması, tədrisin dinamik və interaktiv şəkildə təşkil olunması sahəsində yeniliklərin tətbiq edilməsi** | 2021-2025 | Kafedranın professor-müəllim heyəti | Tədris şöbəsi, İKT mərkəzi |
| **2020-ci ildə təsdiq olunmuş tədris planına uyğun bütün fənlər üzrə yeni elektron mühazirələrin və digər tədris materiallarının hazırlanması** | 2021-2025 | Kafedranın professor-müəllim heyəti | İKT mərkəzi |


İnşaat fakültəsinin
tələbələri

# İnşaat fakültəsi

## Elmi-tədqiqat istiqaməti

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **Elmi-tədqiqat işlərinin mövzuları:**<br>• **İnşaat konstruksiyalarının qeyri-xətti modellər əsasında hesablama metodikalarının işlənməsi;**<br>• **Strukturu dayanıqsız qruntlar üzərində bina və qurğuların əsas və özüllərinin hesablanması üsullarının təkmilləşdirilməsi;**<br>• **Çoxmərtəbəli monolit dəmirbeton karkaslı binaların inşasının təşkilati-texnoloji məsələlərinin tədqiqi;**<br>• **Zəlzələ təsirini nəzərə almaqla bina və qurğuların normal istismarının təmin edilməsi problemləri;**<br>• **Azərbaycan Xalq Cümhuriyyətinin mədəni-mənəvi və humanitar sahədə fəaliyyətinin tədqiqi.** | 2021-2025 | Uyğun kafedralar | Elmi-tədqiqat şöbəsi, Magistratura mərkəzi |
| **Respublika və beynəlxalq elmi-praktik konfransların keçirilməsi:**<br>• **Tikintidə innovasiyalar Azərbaycan-Ukrayna-4 birgə konfransı - 2022 (Ukraynanın Poltava Milli Texniki Universiteti; İstanbul Texniki Universiteti və s.);**<br>• **Aprel-may aylarında ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümlərinə həsr olunacaq Beynəlxalq Elmi konfransların davam etdirilməsi;**<br>• **İnşaat sahəsinin problemlərinə və həll yollarına həsr olunmuş konfransların keçirilməsi;**<br>• **İnşaat elminin inkişaf etdirilməsi və bu sahədə əldə olunan nailiyyətlərin müzakirəsi məqsədi ilə dəyirmi masa, seminar və sərgilərin keçirilməsi.** | 2021-2025 | Uyğun kafedralar | Elmi-tədqiqat şöbəsi, Magistratura mərkəzi |

# Beynəlxalq əlaqələr

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **İxtisas üzrə tədris proqramlarının, fənn proqramlarının, dərsliklərin və dərs vəsaitlərinin təkmilləşdirilməsi üçün beynəlxalq nüfuzlu universitetlərin təcrübəsindən istifadə** | 2021-2025 | Fakültə əməkdaşları | Xarici əlaqələr şöbəsi |
| **İnşaat fakültəsinin beynəlxalq birliklərin işində iştirak etməsi** | 2021-2025 | Fakültə əməkdaşları | Xarici əlaqələr şöbəsi, Magistratura mərkəzi |
| **İstanbul Texniki, Yıldız Texniki, Tomsk Dövlət Memarlıq və İnşaat Universiteti, Sankt-Peterburq Dövlət Memarlıq və İnşaat Universiteti, Novosibirsk Dövlət Memarlıq və İnşaat Universiteti, Poltava Texniki Universiteti, Almaata Texniki Universiteti və digər xarici universitetlər ilə tələbə-müəllim, magistrant və doktorantların mübadiləsinin təşkil olunması** | 2021-2025 | Fakültə əməkdaşları, Kafedralar | Xarici əlaqələr şöbəsi, Magistratura mərkəzi, Doktorantura şöbəsi |
| **Kafedranın müəllimlərinin, doktorantların, magistrantların və bakalavrların milli və beynəlxalq səviyyədə layihələrə cəlb olunması** | 2021-2025 | Fakültə əməkdaşları, Kafedralar | Xarici əlaqələr şöbəsi, Elmi-tədqiqat şöbəsi, Magistratura mərkəzi, Doktorantura şöbəsi |
| **Bakalavrlar, magistrantlar və doktorantlar üçün xaricdə elmi-istehsalat sahələri ilə tanışlıq və təcrübələrin keçirilməsi** | 2021-2025 | Fakültə əməkdaşları | Xarici əlaqələr şöbəsi, Təcrübə və karyera mərkəzi, Magistratura mərkəzi |
| **Gənc kadrların tanınmış elm mərkəzlərində hazırlanması istiqamətində işlərin aparılması** | 2021-2025 | Fakültə əməkdaşları | Xarici əlaqələr şöbəsi, Təcrübə və karyera mərkəzi, Magistratura mərkəzi |
| **Distant tədris texnologiyalarının işlənməsi, inteqrasiya və mobilliyin gücləndirilməsi məqsədi ilə ölkəmizin və xarici ölkələrin uyğun universitetləri ilə birgə fəaliyyətə başlanılması** | 2021-2025 | Tədris şöbəsi, Xarici əlaqələr şöbəsi, Dekanlıq və Kafedralar | Magistratura mərkəzi, İKT mərkəzi |

## Maddi-texniki baza

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **«İnşaat konstruksiyalarının müayinəsi və tədqiqi» və «Tikinti istehsalatının kompüter modelləşdirilməsi» tədris laboratoriyasının tikinti şirkətləri ilə müqavilə əsasında sınaq işlərinin keçirilməsinə cəlb edilməsi** | 2021-2025 | Uyğun kafedralar | Təcrübə və karyera mərkəzi |
| **İnşaat mühəndisliyi ixtisasının beynəlxalq akkreditasiyadan keçirilməsi üçün auditoriyaların beynəlxalq standartlara cavab verən tədris vasitə və ləvazimatları ilə təchiz olunması** | 2021-2025 | Dekanlıq, kafedralar | Universitetin müvafiq struktur bölməsi |
| **İnşaat sektoruna aid mövzularda video-filmlərin çəkilişi və ya alınması və tədris bazasına daxil edilməsi** | 2021-2025 | Uyğun kafedralar | Universitetin müvafiq struktur bölməsi və Strateji planlaşdırma şöbəsi |
| **Fakültənin ixtisaslaşmış auditoriyalarının əyani və vizual materiallarla, o cümlədən tematik posterlərlə və kompüter avadanlığı ilə təchiz edilməsi** | 2021-2025 | Uyğun kafedralar | Universitetin müvafiq struktur bölməsi, Nəşriyyat |

# Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsi

## Fakültənin hədəfləri:

- Ali təhsilin keyfiyyətini Avropa standartları və təlimatları tələblərinə uyğunlaşdırmaqla fakültə tərkibində hazırlanan ixtisasların akkreditasiyadan keçirilməsi;
- Hazırlanan ixtisasların tədris planlarının və fənn proqramlarının müasirləşməsi, yeni tələbləri və texnologiyaları əks etdirməsi üçün işlərin aparılması;
- Meliorasiya tikintisi ixtisasının məzmununun müasirləşməsi və praktiki komponentin güclənməsi;
- “Ekologiya” ixtisasının məzmununun təkmilləşməsi, maddi-texniki bazasının yenidənqurulması;
- “Bərk tullantıların emal texnologiyası” ixtisas proqramının beynəlxalq səviyyədə akkreditasiyadan keçirilməsi;
- Fakültəyə qəbul olunmuş tələbələrdən ən istedadlılarını müəyyən edərək istedadlı gənclər qrupunun yaradılması; TN qarşısında “SABAH” qrupunun yaradılması üçün vəsatət qaldırmaq.

# Tədrisin keyfiyyətinin artırılması

| Görüləcək tədbirlər | İcra müddəti (illər üzrə) | İcraçılar | Yardımçı şöbələr |
|---|---|---|---|
| **Hazırlanan ixtisasların tədris planlarının və fənn proqramlarının təkmilləşdirilməsi** | 2021-2025, periodik | Tədris şöbəsi | Tədris şöbəsi |
| **Professor-müəllim heyətinin elmi-pedaqoji səviyyəsinin artırılması üçün tədbirlər görmək** | 2021-2025, periodik | Tədris şöbəsi | Tədris şöbəsi |
| **Fənlər üzrə çatışmayan dərslik, dərs vəsaitinin qrifli nəşrinə nail olmaq** | 2021-2025, periodik | Tədris şöbəsi | Tədris şöbəsi |
| **Müvafiq ixtisaslar üzrə müəssisə və şirkətlərdə çalışan yerli və xarici mütəxəssislərin fakültədə mühazirə və seminarlarının təşkili** | 2021-2025, davamlı | Dekanlıq, Kafedralar | Tədris şöbəsi, Xarici əlaqələr şöbəsi |
| **Yenilənmiş mühazirələrin elektron versiyası hazırlanaraq kitabxanaya verilməsi** | 2021-2025, periodik | Mühazirə müəllimləri | Tədris şöbəsi |
| **İmtahan suallarının və testlərin keyfiyyətinin artırılması üçün mütəmadi yenilənməsi** | 2021-2025, periodik | Fənn müəllimləri | İmtahan mərkəzi |
| **Tələbələrin təhsildə məsuliyyətinin, motivasiyasının artırılması** | 2021-2025, periodik | Fənn müəllimləri | Dekanlıq |
| **Dərslərdə yeni tədris metodlarından istifadə olunması (PBL (Problem-based learning) tədris metodunun dərslərdə davamlı tətbiqi və s.)** | 2021-2025, davamlı | Fənn müəllimləri | |
| **“Meliorasiya və su təsərrüfatı tikintisi kafedrasında” tədris olunan HTQ, HT meliorasiya və Tikintinin təşkili, texnologiyası və idarə olunması fənləri üzrə çöl tədqiqat-tədris laboratoriyasının yaradılması** | 2021-2025 | İxtisas kafedralarının əməkdaşları | Meliorasiya və Su təsərrüfatı ASC |
